*Biz Kamalla bir-birimizi çoxdan və yaxşı tanıyırıq. Köhnə dostuq. Kamal həmişə qeyri-adi yazıçı olub. O, standartlardan, konservativ Azərbaycan üsullarından həmişə uzaq olub. Həmişə eksperimentlə məşğul olurdu. Yeni şeylər yazmaq, yeni söz demək, fikir demək... Bu çox vacibdir. Onun "Gizli Dədə Qorqud" əsəri dastana tamam yeni baxışdır. Ona görə də Kamal Abdullanın yeniliyə münasibəti, köhnə olanlara qane olmamaq, axtarmaq istəyi mənə həmişə xoş gəlib. Bu yeniliyi biz təkcə onun elmi istiqamətində görmürük. Nəsri də belədir, poeziyası da, dramaturgiyası da.*

*Kamal Abdulla millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri vəzifəsində çalışıb. Multikulturalizm istiqaməti, təbii ki, bizim Prezidentimizin siyasətidir. Kamal bu siyasətin həyata keçirilməsində çox böyük rol oynayıb. Multikulturalizm bu gün Azərbaycanın ən böyük silahıdır. Və əlbəttə, bizim bu sahədəki uğurlarımızda Kamalın da payı var.*

*2007-ci ildə Kamalla bir yerdə Şuşaya səfər etmişik. Əlbəttə, çox kədərli, çox çətin səfər idi. Gözəl Şuşanı o vəziyyətdə görmək çox ağır idi. Kamala demək istəyirəm, nə yaxşı ki, sənin yubileyini biz azad Şuşa ilə bir yerdə qeyd edirik. Biz ora ikimiz gedəcəyik. Sən orda yeni şeirlərini oxuyacaqsan, mən də orda konsert verəcəyəm. Mən səni ürəkdən təbrik edirəm. Həmişə belə ol. Həmişə azad, istiqlal düşüncəli ol. 100 il yaşa!*

***Fərhad BƏDƏLBƏYLİ***

*Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti*